**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin**

**2024-cü il üzrə fəaliyyətinə dair**

# HESABAT

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılmış Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra — Mərkəz) 2024-cü ildə də Nizamnaməsinə müvafiq olaraq normativ hüquqi aktların keyfiyyətinin artırılması, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirmişdir.

*<u>Mərkəzin fəaliyyətinin təşkili üzrə</u>*

Mərkəzin fəaliyyətinin daha da səmərəli təşkili məqsədilə Müşahidə Şurasının 2023-cü il 4 oktyabr tarixli Qərarına uyğun olaraq 2024-cü ildən etibarən Mərkəzin işçilərinin say həddi 5 vahid artırılmaqla Mərkəzdə yeni vəzifələr (İT mütəxəssisi, satınalmalar üzrə mütəxəssis, təsərrüfat işləri üzrə mütəxəssis, İcraçı direktorun köməkçisi və sürücü) təsis edilmişdir. Bununla əlaqədar, 2024-cü ildə həmin vəzifələrə müvafiq təyinatlar aparılmış, habelə hesabat dövrü ərzində Mərkəzdə hüquqşünas ixtisası üzrə yaranmış yeni vakansiyalarla bağlı da müvafiq namizədlərlə müsahibələr aparılmış və təyinatlar həyata keçirilmişdir. Belə ki, qanunvericiliyin təhlilinin aparılması və normativ hüquqi akt layihələrinin tərtib edilməsi sahəsində təcrübəyə malik olduğu nəzərə alınmaqla Ofelya Əlixan qızı Bayramlı Xüsusi hüququn ekspertizası şöbəsinin baş mütəxəssisi vəzifəsinə, Ziyəddin Bəxtiyar oğlu Əlizadə həmin şöbənin aparıcı mütəxəssisi vəzifəsinə və Əsmər Maarif qızı Məmmədzadə Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin aparıcı mütəxəssisi vəzifəsinə təyin edilmişdir.

Həmçinin, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2024-cü il 5 mart tarixli 15 nömrəli Fərmanla Mərkəzin Nizamnaməsinin təkmilləşdirilməsi üzrə bəzi dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən, (i) Mərkəzin bəzi fəaliyyət istiqamətlərinin və vəzifələrinin məzmunu dəqiqləşdirilmiş, (ii) Mərkəzin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək vəzifəsi Mərkəzin Müşahidə Şurasına aid edilmiş, (iii) Mərkəzin tabe qurumlarının işçilərinin (idarəetmə orqanlarının üzvləri istisna olmaqla) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində intizam və həvəsləndirmə tədbirlərinin görülməsi

səlahiyyəti müvafiq tabe qurumların rəhbərliyinə aid edilmişdir. Həmin dəyişikliklər nəzərə alınmaqla Hüquq və İnsan Haqları İnstitutunun Nizamnaməsində dəyişiklik edilməsini nəzərdə tutan layihə tərəfimizdən hazırlanmış və Müşahidə Şurasının 20 noyabr 2024-cü il tarixli MŞ/11-001 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Bundan əlavə Mərkəzin fəaliyyətinin daha effektiv həyata keçirilməsi üçün “Mərkəzin hüquqi maarifləndirmə işinin aparılması ilə bağlı 2024-cü il üzrə tədbirlər planı”, “Mərkəzin normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı 2024-cü il üzrə tədbirlər planı”, habelə Mərkəzin fəaliyyətindən əldə etdiyi vəsait hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemi çərçivəsində Mərkəzin işçilərinin mükafatlandırılması ilə bağlı məsələləri tənzimləyən “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin işçilərinin həvəsləndirilməsi qaydası” təsdiq edilmişdir. Mərkəzin əməkdaşlarının mükafatlandırılması həmin qaydaya uyğun olaraq həyata keçirilir. Eyni zamanda, Mərkəzin İcraçı direktorunun 1 avqust 2024-cü il tarixli 6 nömrəli qərarı ilə Hüquq və İnsan Haqları İnstitutunun işçilərinin həvəsləndirilməsi qaydası təsdiq edilmişdir.



Qeyd edilənlərlə yanaşı, Mərkəzdə və Hüquq və İnsan Haqları İnstitutunda sənədləşmə və sənədlərlə işin təşkili məsələlərində mobilliyə, çevikliyə və optimallığa nail olunması məqsədilə elektron sənəd dövriyyəsi sisteminin tətbiq edilməsi üzrə işlər davam etdirilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2024-cü il 3 aprel tarixli 195 nömrəli Qərar qəbul edilmiş və müvafiq siyahıya Mərkəzin indeksi əlavə edilmişdir.

Eyni zamanda, Mərkəz tərəfindən "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulmuş tapşırığın icrası təmin olunmuşdur. Belə ki, 2024-cü ilin iyul ayının 1-dən etibarən Mərkəz elektron sənəd dövriyyəsi sisteminə tam şəkildə qoşulmuş və bütün sənəd dövriyyəsinin həmin sistem üzərindən həyata keçirilməsinə başlanılmışdır. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azintelecom" MMC-yə müraciət edilərək elektron sənəd dövriyyəsində istifadə edilməsi məqsədilə Mərkəzin əməkdaşlarına elektron imza vasitələrinin (SİMA tokeninin) əldə edilməsi təmin edilmişdir. Bundan başqa hesabat dövründə Hüquq və İnsan Haqları İnstitutunun əməyin mühafizəsi üzrə mühəndisi Mərkəzin işçilərinin əməyin mühafizəsi normaları və qaydaları ilə tanış etmiş və Mərkəzdə əməyin mühafizəsi üzrə standartların, normaların və qaydaların tələblərinə əməl edilməsi vəziyyətini təhlil edərək zəruri tədbirlərin görülməsinə dair rəy vermişdir.

Hesabat dövründə Mərkəzin fəaliyyətinin təşkili məqsədilə "Dövlət satınalmaları haqqında" Qanuna uyğun olaraq, Mərkəz tərəfindən müxtəlif satınalma metodlarından istifadə edilməklə 11 sayda satınalma həyata keçirilmişdir.

Göstərilənlərlə yanaşı hesabat ilində Mərkəzin fəaliyyət istiqamətləri üzrə beynəlxalq əməkdaşlığın intensivləşdirilməsi ilə əlaqədar təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasına təqdim edilmişdir. Məqbul hesab edilmiş təkliflərlə əlaqədar Azərbaycan Respublikası tərəfindən Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstituta *(UNIDROIT)* və Beynəlxalq İnkişaf Hüquq Təşkilatına *(IDLO)*, Mərkəzin isə Beynəlxalq Qanunvericilik Assosiasiyasına (International Association of Legislation *(IAL)* və Avropa Hüquq İnstitutuna *(European Law Institute (ELI)* üzv olması ilə əlaqədar prosedurlara başlanılmışdır.

2024-cü ilin 7 noyabr tarixində Mərkəz Beynəlxalq Qanunvericilik Assosiasiyasına üzv olmuşdur. Beynəlxalq Qanunvericilik Assosiasiyası normayaratma proseslərinin və qanunvericiliyin keyfiyyətinin öyrənilməsi, təkmilləşdirilməsi və təşviqi sahəsində fəaliyyət göstərən qlobal təşkilatdır. Təşkilat ayrı-ayrı dövlətlərin normayaratma fəaliyyəti ilə məşğul olan müvafiq qurumları, hüquqşünasları və siyasətçiləri üçün fikir mübadiləsi aparmaq, qabaqcıl

təcrübələri bölüşmək və hüquqi akt layihəsinin hazırlanması, hüquqi islahatlar və tənzimləmə ilə bağlı məsələlərdə əməkdaşlıq etmək üçün platforma rolunu oynayır.

*Hüquqi ekspertiza və hüquqi aktların hazırlanması sahəsində görülmüş işlər üzrə*

Hesabat dövrü ərzində Mərkəz Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələrinin icrasını davam etdirmiş, öz fəaliyyətinin təşkili istiqamətində işlər görmüş, normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmişdir. Aparılmış hüquqi ekspertiza çərçivəsində Mərkəzə təqdim edilmiş müxtəlif hüquqi aktların layihələrinin aidiyyəti normativ hüquqi aktların, o cümlədən "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılması, qüvvədə olan qanunvericilik aktları ilə ziddiyyətlərin aradan qaldırılması, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi məqsədilə rəylərin verilməsi təmin olunmuş, habelə Müşahidə Şurasının 2024-cü il 2 iyul tarixində keçirilmiş Mərkəzin 2024-cü ilin birinci yarımili üzrə fəaliyyətinə dair iclasında verilmiş tapşırıqlara uyğun olaraq hüquqi ekspertiza ilə əlaqədar təqdim edilən rəylərin təkmilləşdirilməsi istiqamətində işlər aparılmışdır.

Belə ki, cari ildə minatəmizləmə fəaliyyətinin hüquqi, iqtisadi, sosial və təşkilati əsaslarının müəyyən edilməsini nəzərdə tutan "Minatəmizləmə fəaliyyəti haqqında" Qanun layihəsinin hüquqi ekspertizası həyata keçirilmiş və beynəlxalq təcrübə, o cümlədən Beynəlxalq Mina Təmizləmə Standartları nəzərə alınaraq layihənin təkmilləşdirilməsi təmin edilmişdir. Layihədə minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət orqanları (qurumları), fiziki və hüquqi şəxslər tərəfindən minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmə proseduru, təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti, minatəmizləmə fəaliyyətində keyfiyyətə nəzarət, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə, zərərçəkmişlərə dəstək tədbirləri və minatəmizləyənlərin təminatları ilə bağlı müddəalar nəzərdə tutulmuşdur. Bununlada minatəmizləmə fəaliyyətinin Beynəlxalq Mina Təmizləmə Standartlarına uyğun təhlükəsiz və keyfiyyətli qaydada aparılması ilə bağlı tələblərin müəyyən edilməsi və bu fəaliyyətin keyfiyyətinə nəzarət sisteminin təşkil olunması üçün hüquqi əsaslar müəyyən edilmişdir. Qeyd olunan qanun layihəsi Milli Məclisin 2024-cü il 13 dekabr tarixində keçirilmiş plenar iclasında üçüncü oxunuşda qəbul edilmişdir.

Həmçinin, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı münasibətləri tənzimləyən "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Qanun layihəsinin tərəfimizdən hüquqi ekspertizası həyata keçirilmiş, sözügedən layihə ilə bağlı daxili qanunvericilik aktları, habelə bir sıra xarici dövlətlərin təcrübəsi araşdırılmış və layihənin təkmilləşdirilməsinə dair təkliflər verilmişdir. Qeyd olunan Qanun layihəsi 2024-cü il 7 may tarixində qəbul edilmişdir.

Bundan başqa, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin müraciətinə əsasən Mərkəz tərəfindən boşanmaların sayının azaldılması sahəsində mütərəqqi hüquqi tənzimləmə mexanizmlərinin müəyyən edilməsi, bu zaman uşaq hüquqlarının, o cümlədən uşaq mənafeyinin üstünlüyü prinsipinin nəzərə alınması, məişət zorakılığı hallarında zorakılığa məruz qalmış şəxslərin hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsi üçün çevik hüquqi tənzimləmə mexanizmlərinin müəyyən edilməsi, həmçinin zəruri hallarda nikahın pozulması prosedurunun sürətləndirilməsi üçün hüquqi bazanın yaradılması, nikahın pozulması proseduru ilə bağlı məhkəmə və digər aidiyyəti orqanların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanması üçün 15 xarici ölkənin təcrübəsi araşdırılmış, aidiyyəti sahədə beynəlxalq müqavilələrin tələbləri və beynəlxalq təşkilatların tövsiyələri təhlil edilmişdir. Məsələ ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəy və təkliflərinin alınması üçün 13 dövlət orqanına (quruma) müraciət edilmişdir. Nəticədə “Azərbaycan Respublikası Ailə Məcəlləsinin nikahın bağlanması və nikaha xitam verilməsi ilə bağlı normalarının, əlaqəli qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətləri üzrə Təkliflər” hazırlanaraq Komitəyə təqdim edilmişdir. Həmin təkliflərə Komitə tərəfindən müsbət mövqe bildirilmiş və bununla əlaqədar 13 qanuna dəyişiklikliyi nəzərdə tutan 2 qanun layihəsi, 6 fərmana dəyişiklikliyi nəzərdə tutan 2 fərman layihəsi hazırlanmışdır. Bundan başqa, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməsinə dair tələblərin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında layihə hazırlanmışdır. Qeyd olunan layihələrin qəbulu ilə nikahla bağlı normaların təkmilləşdirilməsi, məişət zorakılığından zərərçəkmiş şəxslərin müdafiəsi, ümumilikdə ailə institutunun möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin icrası təşkil edilməklə nikahın pozulmasının çoxsaylı mənfi təsirlərinin azaldılması təmin olunacaqdır.

Bununla yanaşı, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən Mərkəzə daxil olmuş müraciətlər əsasında Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası”nın 2.4-cü bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə uyğunluğunun yoxlanılmasına dair vətəndaşlar A.Abbasova və digərlərinin, N.Dadaşova və digərlərinin, habelə T.Vəliyeva və digərlərinin konstitusiya şikayətləri və Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın 2.1-ci bəndinin “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə (şəhid və şəhid ailəsi anlayışı) və Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin (bərabərlik hüququ) I, III-V hissələrinə, 29-cu maddəsinin (mülkiyyət hüququ) VII hissəsinə, 38-ci maddəsinin (sosial təminat hüququ) I-III hissələrinə, 71-ci maddəsinin (insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) I-II hissələrinə və 149-cu maddəsinin (normativ hüquqi aktlar) I və V hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) sorğusu ilə əlaqədar hüquqi rəylərin verilməsi təmin edilməklə

yanaşı bir sıra normativ hüquqi aktın layihələri hazırlanmış, habelə Nazirlər Kabinetinin qərar layihəsinin hüquqi ekspertizası həyata keçirilmişdir.

Həmçinin, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin müraciəti əsasında Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinin biznes maraqlarının dövlət orqanları (qurumları) ilə əlaqələrdə və beynəlxalq iqtisadi münasibətlərdə bərabər, sistemli qaydada və effektiv təmsil olunmasının təmin edilməsi, habelə ölkədə əlverişli və rəqabətə əsaslanan biznes mühitinin inkişaf etdirilməsi məqsədilə normativ hüquqi aktların layihələri, onlardan irəli gələn digər sənədlər hazırlanmışdır.

Bununla yanaşı, Dünya Bankı Qrupunun "Business Ready" layihəsinin "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyaların həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin 1.3-cü bəndinin icrası ilə əlaqədar iflas proseduru başlanılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrində və vergi ödəyicilərinin dövlət reyestrində uçotunun aparılması məqsədi ilə Azərbaycan Respublkasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış normativ hüquqi akt layihələrinə dair Mərkəz tərəfindən rəy bildirilmişdir. Daha sonra rəylərimiz nəzərə alınmaqla təkmilləşdirilmiş layihələr 23.12.2024-cü il tarixində vizalanmışdır.

Hesabat dövründə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin müraciətinə əsasən ictimai iştirakçılıq, qeyri-hökumət təşkilatları və qrant haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri üzrə (i) "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın təkmilləşdirilməsi ilə bağlı təkliflər", (ii) "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun və əlaqəli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər", (iii) "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun və əlaqəli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər" hazırlanmışdır.

Mərkəzlə Enerji Məsələlərini Tənzimləmə Agentliyi arasında 30.07.2024-cü il tarixində müqavilə imzalanmış və müqavilə çərçivəsində Mərkəz tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nın hüquqi ekspertizası aparılaraq onun "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbləri baxımından təkmilləşdirilməsi, daha yüksək hüquqi qüvvəyə malik olan, həmçinin son dövrlərdə aidiyyəti sahədə qəbul edilmiş hüquqi aktların tələblərinə uyğunlaşdırılması, normayaratma texnikasına uyğunluğunun təmin edilməsi istiqamətində işlər görülmüşdür.

Həmçinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin müraciəti əsasında "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihələrinin hüquqi ekspertizası aparılaraq, təkmilləşdirilməsi təmin olunmuşdur.

Bundan başqa, Səhiyyə Nazirliyinin müraciətinə uyğun olaraq “Tibb müəssisələrinin akkreditasiyası Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinin hüquqi ekspertizası aparılmış, beynəlxalq təcrübə də nəzərə alınmaqla təkmilləşdirilməsi təmin edilmişdir. Belə ki, akkreditasiya prosesinin şəffaflığını təmin etmək, vaxt və resursların daha səmərəli istifadəsinə nail olmaq məqsədilə akkreditasiya müraciətlərinin yalnız elektron qaydada qəbul edilməsi nəzərdə tutulmuş, akkreditasiya prosesinin təşkili ilə bağlı məsələlər, o cümlədən akkreditasiyanın təxirə salınması və növbədənkənar akkreditasiyanın keçirilməsi halları müəyyən edilmişdir. Həmçinin, akkreditasiya prosesinin obyektivliyini və şəffaflığını təmin etmək məqsədilə xarici ölkələrin təcrübələri nəzərə alınaraq layihədə akkreditasiya mərhələləri dəqiq şəkildə təsvir edilmiş, tibb müəssisələrinin akkreditasiya meyarlarına uyğunluğunun qiymətləndirilməsi üçün üsullar müəyyən edilmiş və bu üsulların tətbiqi ətraflı şəkildə təsvir olunmuşdur. Layihədə beynəlxalq akkreditasiyadan keçmiş tibb müəssisələrinin nəticələrinin tanınması ilə bağlı müddəa da əks olunmuşdur. Bununla yanaşı layihədə akkreditasiya prosesində müəyyən edilmiş nöqsanların aradan qaldırılması və normativ hüquqi aktların tələblərinə cavab verən tibbi xidmətlərin keyfiyyətinin artırılması məqsədilə akkreditasiyadan sonrakı qiymətləndirmə mexanizminin yaradılması nəzərdə tutulmuşdur.

Hesabat dövrü ərzində “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu layihəsi hazırlanmışdır. Layihədə muxtar respublikanın icra, qanunverici və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət bölgüsü ilə bağlı çərçivələrin dəqiqləşdirilməsi, ali vəzifəli şəxsin və Ali Məclisin səlahiyyətlərinin dairəsinin müəyyən edilməsi və onların qəbul etdiyi aktlarla bağlı məsələlərin tənzimlənməsi, habelə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin funksiyaları və məhkəmə sisteminin tərkibinə yenidən baxılması bağlı müddalar əks olunmuşdur.

Göstərilənlərlə yanaşı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə bağlanılmış müqavilə çərçivəsində xarici ölkələrin təcrübəsi, aidiyyəti beynəlxalq təşkilatların rəy və tövsiyələri, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələbləri araşdırılmaqla həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyin, həmkarlar ittifaqlarının və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri üzrə təkliflərin hazırlanması ilə bağlı işlər görülmüşdür. Belə ki, həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanması üçün Azərbaycan Respublikasının və bir sıra xarici ölkələrin (Məsələn, Rusiya Federasiyası, Almaniya, Ukrayna, Belçika, Özbəkistan, Türkiyə, Estoniya, Belarusiya, Qazaxıstan, İsveç, Latviya, Litva və s.) aidiyyəti qanunvericiliyi və aidiyyəti mənbələr ətraflı araşdırılmış, həmçinin Beynəlxalq Əmək Təşkilatının “Sərbəst toplaşmaq azadlığı və təşkilatlanma hüququnun müdafiəsi haqqında” 1948-ci il tarixli 87 nömrəli, “Təşkilatlanma hüququ və kollektiv müqavilə haqqında” 1949-cu il tarixli 98 nömrəli konvensiyaları və digər sənədlər təhlil edilmişdir. Eyni zamanda aidiyyəti

dövlət orqanlarının (qurumlarının) rəy və təkliflərinin alınması üçün 7 orqana (quruma), 6 ali təhsil müəssisəsinə və 1 qeyri-hökümət təşkilatına müraciət edilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının istəyinə uyğun olaraq, idarəetmənin səmərəli təşkili, maliyyənin idarə edilməsinin təkmilləşdirilməsi, şəffaflığın təmini, əmək hüquqlarının qorunması, əməyin və sağlamlığın mühafizəsi sahəsində həmkarlar ittifaqlarının səlahiyyətləri, həmkarlar ittifaqlarının müstəqilliyi və onların fəaliyyətinə dövlət qurumlarının, siyasi partiyaların, vəzifəli şəxslərin müdaxiləsinin qarşısının alınması istiqamətində ciddi dəyişikliklər edilməsi, dövlət orqanlarının və qurumlarının elektron informasiya sistemlərinə inteqrasiyanı təmin edən dəyişikliklərin qanunvericilikdə nəzərdə tutulması ilə bağlı araşdırılma aparılmışdır. Qeyd olunanlarla bağlı ilkin təkliflər hazırlanmışdır. Təkliflərə dair Konfederasiyanın rəyi təqdim edildikdən sonra müvafiq normativ hüquqi akt layihələri tərtib ediləcəkdir.

Ümumilikdə, hesabat dövründə müxtəlif dövlət orqanlarının (qurumlarının) sifarişi əsasında 10 qanun layihəsi (o cümlədən 29 qanuna dəyişiklik nəzərdə tutan 4 qanun layihəsi), Azərbaycan Respublikası Prezidentinin 12 fərman layihəsi (o cümlədən 31 fərmana dəyişiklik nəzərdə tutan 6 fərman layihəsi), Azərbaycan Respublikası Prezidentinin 2 sərəncam layihəsi, Nazirlər Kabinetinin 5 qərar layihəsi (o cümlədən 14 qərara dəyişiklik nəzərdə tutan 2 qərar layihəsi) hazırlanmışdır. Eyni zamanda, qeyd olunan hüquqi akt layihələrinin əsaslandırma sənədlərinin təkmilləşdirilməsi, bəzi hallarda isə yenidən hazırlanması təmin edilmişdir.

Həmçinin, hesabat dövrü ərzində 6 qanun layihəsinin, 3 fərman layihəsinin və 3 Nazirlər Kabinetinin qərar layihəsinin hüquqi ekspertizası keçirilmişdir.






*<u>Qanunvericilik təşəbbüsü qaydasında görülmüş işlər üzrə</u>*

Mərkəz tərəfindən hazırlanan yeni "Beynəlxalq müqavilələr haqqında" qanun layihəsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Xarici İşlər və Ədliyyə nazirliklərinin nümayəndələrinin iştirakı ilə intensiv görüşlər keçirilərək növbəti müzakirələr aparılmışdır. Ümumi müzakirələr nəticəsində qanun layihəsinin təkmilləşdirilməsinə başlanılmış, lakin aidiyyəti orqanlar tərəfindən layihənin müvafiq müddəalarına dair yekun mövqe bildirilmədiyindən onun yekunlaşdırılması hazırda mümkün olmamışdır.

Həmçinin qeyd olunmalıdır ki, Mərkəzin təşəbbüsü ilə 11.12.2023-cü il tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində təşkil olunan, Mərkəzin rəhbərlik etdiyi "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi" işçi qrupu fəaliyyətini hesabat dövründə aktiv şəkildə davam etdirərək bir sıra tədbirlər görmüşdür. Belə ki, 19.01.2024-cü il tarixdə işçi qrupun 2024-cü il üzrə fəaliyyət planı təsdiq edilmiş və həmin planda 2024-cü ildə Mülki Məcəllənin ümumi hissəsinin müvafiq fəsilləri üzrə Konsepsiya sənədinin hazırlanması qərara alınmışdır. Təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq, Mərkəz tərəfindən maraqlı tərəflər (Mülki Məcəllənin müvafiq maddələrini tətbiq edən və ya onların tətbiqinə məruz qalan şəxslər) və işçi qrupun üzvlərinin iştirakı ilə bir sıra görüşlər keçirilmiş, onların rəy və təklifləri də nəzərə alınmaqla, Mülki Məcəllənin təkmilləşdirilməsi üzrə

Konsepsiya sənədinin 1-ci və 2-ci fəsilləri əhatə edən hissələri hazırlanaraq müzakirəsi təşkil edilmişdir.[1] 01.05.2024-cü il tarixdə Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı hazırlanmış layihələr təkliflərin təqdim edilməsi üçün Komissiyanın veb-saytında yerləşdirilməklə e-iştirakçılıq qaydasında müzakirəyə təqdim olunmuşdur.[2]

Eyni zamanda, aidiyyəti dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları və sahibkarlardan ibarət 40-dan çox maraqlı tərəfə müraciət edilərək, həmin subyektlərin Mülki Məcəllənin 4-cü fəsli (hüquqi şəxslər) üzrə təcrübədə qarşılaşdığı problemlər, bu problemlərin aradan qaldırılması, habelə Mülki Məcəllənin 4-cü fəslinə daxil olan müddəaların təkmilləşdirilməsinə dair yazılı təkliflərinin əldə olunması təmin edilmiş və təhlil olunması prosesinə başlanılmışdır.

30.10.2024-cü il tarixində “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrupunun Hüquq və İnsan Haqları İnstitutunda hibrid formatda növbəti iclası baş tutmuşdur. İclasda Mülki Məcəlləyə əlavə edilməsi nəzərdə tutulan 2-1-ci fəsil (“Qeyri-əmlak hüquqları”) üzrə hazırlanan Konsepsiya sənədinin layihəsi müzakirə edilmişdir.[3]

Qeyd olunanlardan başqa, *cəza sistemindən islah işləri növündə cəzaların çıxarılması ilə bağlı* “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” qanun və “Azərbaycan Respublikası Prezidentinin "Əfvetmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə” 2001-ci il 18 iyul tarixli 538 nömrəli və “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında” 2008-ci il 22 aprel tarixli 744 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” fərman layihələri, *nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə tələbinin ləğv edilməsi ilə bağlı* “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” qanun və həmin qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” fərman layihələri, *vəkil yardımından istifadə edən şəxs ilə bağlanmış müqaviləyə əsasən işin nəticəsində əldə olunan gəlirdən vəkilin müəyyən faiz nisbətində haqq ("uğur haqqı") alması ilə bağlı* “Vəkillər və vəkillik fəaliyyəti barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” qanun layihəsi razılaşdırılması üçün aidiyyəti orqanlara göndərilmişdir.

*<u>Mərkəz tərəfindən hazırlanmış hüquqi arayış və rəylər</u>*

[1] https://heqt.gov.az/post-details.php?lang=az&id=105
[2] https://azranking.az/public/images/Konsepsiya%20-%20M%C3%BClki%20M%C9%99c%C9%99ll%C9%99%20%28%C3%BCmumi%20d%C3%BCz%C9%99li%C5%9Fl%C9%99r%20v%C9%99%201-ci%20f%C9%99sil%29.pdf
[3] https://heqt.gov.az/az/news/view/130

Hesabat dövründə dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında hüququn müxtəlif sahələri üzrə hüquqi tədqiqatların aparılması və rəylərin verilməsi sahəsində də işlərin görülməsi davam etdirilmişdir. Belə ki, Mərkəz tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin aşağıdakı işlər üzrə müraciətləri ilə əlaqədar müvafiq rəylərin verilməsi təmin edilmişdir:

1) "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 673.1.2 və 673.3-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin I hissəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair";

2) "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulmasının müsahibə yolu ilə həyata keçirilməsinə dair 29.2 və 29.5-ci maddələrinin məhkəmə hakimiyyəti orqanı olan prokurorluq orqanlarında da qulluq keçən dövlət qulluqçularına şamil olunmasının mümkünlüyü məsələsinin Azərbaycan Respublikası Konstitusiyasının 7-ci fəslinin 133-cü və "Prokurorluq haqqında" Qanunun 2-ci maddələri ilə əlaqəli şərh edilməsinə dair";

3) "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1194-cü maddələrinin həmin Məcəllənin 372, 373, 1166, 1255 və 1202.2-ci maddələri, habelə Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin birinci və yeddinci bəndlərinin tələbləri baxımından əlaqəli şəkildə şərh edilməsinə dair";

4) "Şirvan Apellyasiya Məhkəməsinin Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələrinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442, 443, 444, 445, 447 və 449-cu maddələrinin şərh edilməsi ilə bağlı müraciətinə dair";

5) "Cinayət Məcəlləsinin 234-cü maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanununun 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair";

6) "Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-3.3-cü hissəsinin Mülki Məcəllənin 49, 91, 91-2.1 və 91-2-ci maddələri, Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələri, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsi baxımından şərh edilməsinə dair";

7) "Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının Qərarının və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair vətəndaş Vafina Zemfira Şabanovnanın Konstitusiya Məhkəməsinə şikayətinə dair";

8) "Ali Məhkəmənin İnzibati Kollegiyasının 02.11.2023-cü il tarixli 2-1(102)-1849/2023 nömrəli qərarının Konstitusiyanın və qanunvericiliyinin tələblərinə uyğun olmaması ilə bağlı "Azerfon" Məhdud Məsuliyyətli Cəmiyyətinin Konstitusiya Məhkəməsinə şikayətinə dair";

9) "Şəki rayon Məhkəməsi tərəfindən qəbul edilmiş qərardadların məhkəməyə müraciət etmək hüququnu pozmasına dair vətəndaş Razim Rza oğlu Rzayevin Konstitusiya Məhkəməsinə şikayətinə dair";

10) "Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının qərarından vətəndaş Məmmədova Leyla Adil qızının Konstitusiya Məhkəməsinə şikayətinə dair".

Həmçinin, Energetika Nazirliyinin müraciətinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndinə uyğun olaraq həyata keçirilən "240 MVt gücündə Xızı-Abşeron külək eletrik stansiyası"nın tikintisi layihəsi çərçivəsində Energetika Nazirliyi ilə "ACWA Power Azerbaijan Renewable Energy" MMC arasında bağlanması nəzərdə tutulan müqavilələrin qanunauyğunluğuna dair rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Eyni zamanda, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin müraciəti əsasında Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni idarəetmə modelinin yaradılması ilə bağlı hüquqi araşdırma aparılmaqla nəticəsinə dair müvafiq rəy hazırlanmışdır.

Bununla yanaşı, "Elektron cinayət təqibinin xüsusiyyətləri" mövzusuna həsr olunmuş xüsusi iclasda tədqiq ediləcək suallar üzrə təkliflərə, adam oğurluğu cinayəti ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsinə, habelə "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 22 nömrəli Fərmanında nəzərdə tutulan dəyişikliklərin mahiyyəti barədə müvafiq hüquqi arayışların hazırlanması təmin edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin müraciətinə əsasən Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nın 2.4-cü bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə uyğunluğunun yoxlanılmasına dair vətəndaşlar A.Abbasova və digərlərinin, N.Dadaşova və digərlərinin, habelə T.Vəliyeva və digərlərinin konstitusiya şikayətləri ilə bağlı Mərkəz tərəfindən rəy hazırlanmışdır. Eyni zamanda, Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 2.1-ci bəndinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə (şəhid və şəhid ailəsi anlayışı) və Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin (bərabərlik hüququ) I, III-V hissələrinə, 29-cu maddəsinin (mülkiyyət hüququ) VII hissəsinə, 38-ci maddəsinin (sosial təminat hüququ) I-III hissələrinə, 71-ci maddəsinin (insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) I-II hissələrinə və 149-cu maddəsinin (normativ hüquqi aktlar) I və V hissələrinə uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) sorğusu ilə bağlı Nazirlər Kabinetinin müraciəti üzrə müvafiq rəy hazırlanmışdır.

**HÜQUQİ ARAYIŞ VƏ RƏYLƏR**

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 10 müraciəti üzrə müvafiq rəylər hazırlanaraq təqdim edilmişdir

Müxtəlif dövlət orqanlarından (qurumlarından) Mərkəzə daxil olmuş müraciətlər əsasında rəylərin verilməsi təmin edilmişdir

Müxtəlif normativ hüquqi akt layihələri və hüquqi məsələlərlə bağlı xarici təcrübəyə dair müvafiq hüquqi arayışların hazırlanması təmin edilmişdir

*Normayaratma və hüquq normalarının tətbiqi sahəsindəki təlimlər üzrə*

Hesabat dövrü ərzində dövlət orqanları (qurumları) üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərin səmərəliliyinin artırılması istiqamətində işlər aparılmışdır. Bu məqsədlə ilk növbədə Mərkəzin İcraçı direktoru tərəfindən “Normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərin təşkili ilə bağlı məsələlər haqqında” 02.05.2024-cü il tarixli əmr imzalanaraq Mərkəzin aidiyyəti əməkdaşlarına təlimlərin daha səmərəli təşkil olunmasına dair müvafiq tapşırıqlar verilmişdir. Mərkəzdə təlimlərin interaktivliyini artırmaq və daha çox təcrübə yönümlü olmasını təmin etmək məqsədilə yeni təlim materialları və təqdimatlar hazırlanmış, habelə müasir təlim metodlarının öyrənilməsi istiqamətində araşdırmalar aparılmışdır.

Mərkəz tərəfindən 2024-cü ildə Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə müvafiq olaraq dövlət orqanlarının (qurumlarının) hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində 4 təlim keçirilmişdir. Təlimlərdə mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti və digər dövlət orqanlarından (qurumlarından) ümumilikdə 67 nümayəndə iştirak etmişdir.

Beş gün davam edən hər təlimdə Mərkəz və onun funksiyaları, hüquqi aktların növləri və qəbul edilmə xüsusiyyətləri, normativ hüquqi aktların kolliziyası, qanunvericilikdə boşluqlar və onların aradan qaldırılması üsulları, normayaratma prosesi, normayaratma texnikası və layihənin hazırlanmasına dair ümumi tələblər, normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin hazırlanması, hüquqi akt layihəsinin təqdim edilməsi, baxılması, qəbul edilməsi, rəsmi dərc edilməsi və qüvvəyə minməsi, normativ hüquqi akt layihəsinin məcburi hüquqi ekspertizasının, o cümlədən sui-istifadəyə məruz qalmasına dair ekspertizasının keçirilməsi qaydaları və nəticələrinin rəsmiləşdirilməsi və digər məsələlər barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Həmçinin, təlimin son günü sözügedən mövzularla əlaqədar iştirakçılarla fikir mübadiləsi aparılmış, normativ hüquqi aktların layihəsinin hazırlanması, məcburi hüquqi ekspertizasının aparılması, nöqsan və çatışmazlıqların aşkar edilməsi üzrə praktiki məşğələ aparılmışdır. İnteraktiv keçən təlimlərdə müxtəlif komanda işləri icra olunmuş, habelə keçirilmiş mövzularla əlaqədar “Kahoot” platforması üzərindən və “Nə? Harada? Nə zaman?” formatında intellektual yarışlar təşkil edilmiş, suallar üzərində müzakirələr aparılmaqla mövzuların mənimsənilməsi prosesinə şərait yaradılmışdır. Təlimi uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim edilmişdir.

Qeyd edilməlidir ki, hər təlimin sonunda iştirakçılar tərəfindən təlimin və təlimçilərin qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmə anketlərinin təhlili nəticəsində müəyyən edilmişdir ki, təlimlər uğurlu olmuş və iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

Eyni zamanda qeyd edilməlidir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiq edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) əməkdaşları üçün təlimlərin keçirilməsi işinin təşkili məqsədilə Mərkəz tərəfindən Hüquq və İnsan Haqları İnstitutuna tapşırıqlar verilmiş, İnstitut tərəfindən isə öz növbəsində bu istiqamətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin bir sıra polis idarələrində və şöbələrində 110 polis əməkdaşı, habelə yerli icra hakimiyyəti orqanlarının 144 əməkdaşı, mərkəzi icra hakimiyyəti orqanlarının 184 əməkdaşı üçün təlimlərin keçirilməsi təmin edilmişdir.

*Normativ hüquqi aktların keyfiyyətinin artırılması məqsədilə hazırlanan materiallar*

Normayaratma fəaliyyətində vahid yanaşmanın təmin edilməsi və normativ hüquqi aktların keyfiyyətinin artırılması məqsədilə Mərkəz tərəfindən hazırlanmış “Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları” Müşahidə Şurasının 2024-cü il 19 yanvar tarixli MŞ/1-001 nömrəli Qərarı ilə və “Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat” Mərkəzin İcraçı direktorunun 16.01.2024-cü il tarixli F-04/2024 nömrəli əmri ilə təsdiq edilmişdir. Bundan başqa, hesabat dövründə “Normayaratma texnikasının Qaydaları” layihəsinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilmişdir.

Eyni zamanda, hesabat ili ərzində normativ hüquqi akt layihələrinin insan hüquqları baxımından təhlilinin və ekspertizasının keyfiyyətinin yüksəldilməsi məqsədilə Mərkəz və

Hüquq və İnsan Haqları İnstitutu tərəfindən “İnsan hüquqları ekspertizasının aparılmasına dair təlimat”ın hazırlanması üzrə işlər davam etdirilmiş və hazırda yekunlaşdırılma mərhələsindədir. Təlimatın hazırlanması zamanı BMT-nin İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycan Respublikasına ünvanlanmış tövsiyələri, BMT-nin aidiyyəti qurumları tərəfindən hazırlanan nəşrlər, bələdçilər, hesabatlar, habelə Avropa Şurasının İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycana ünvanlanmış tövsiyələr (o cümlədən AİHM-nin qərarlarından irəli gələn tələblər) və insan hüquqları sahəsində yerli qurumların tövsiyələri (məsələn, Ombudsmanın məruzələri və hesabatları) əsas götürülməsi nəzərdə tutulmuşdur.

*Elmi-praktiki kommentariyaların hazırlanması üzrə*

Mərkəzin Nizamnaməsinə uyğun olaraq hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanması istiqamətində də tədbirlər görülmüşdür. Belə ki, Mərkəz və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununun kommentariyasının ilkin layihəsi üzərində işlər tamamlanmışdır. Kommentariyanın hazırlanması zamanı Almaniya, Fransa, Rusiya Federasiyası, Gürcüstan və digər ölkələrin müvafiq qanunvericiliyi və hüquq doktrinası araşdırılmış, yerli və xarici akademik ədəbiyyatdan, məqalələrdən və məhkəmə təcrübəsi materiallarından istifadə edilmişdir. Kommentariyanın 2025-ci ildə dərc olunması nəzərdə tutulur.

*Hüquqi tərcümə işinin təşkili üzrə*

Hesabat dövrü ərzində Mərkəz tərəfindən peşəkar hüquqi tərcümə işinin səmərəli təşkil edilməsi diqqətdə saxlanılmışdır. Eyni zamanda, Mərkəzin rəsmi internet saytında “Hüquqi tərcümə” adlı xüsusi bölmə yaradılmaqla tərcümə edilmiş sənədlərin həmin bölmədə yerləşdirilməsi təmin olunur.

Xarici investorların, o cümlədən Azərbaycan Respublikası ilə iqtisadi əlaqələri olan digər subyektlərin Azərbaycan Respublikasında arbitrajın həyata keçirilməsini tənzimləyən hüquqi baza haqqında məlumata əlçatanlığının təmin edilməsi və bununla da Azərbaycan Respublikasında əlverişli biznes və investisiya mühitinin təşviq edilməsinə töhfə vermək məqsədilə Mərkəz və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən “Arbitraj haqqında” Azərbaycan Respublikası Qanununun ingilis dilinə tərcümə edilməsi təmin olunmuşdur. Eyni zamanda, yoxlanılmış və təsdiq edilmiş yekun tərcümə Mərkəzin rəsmi internet saytında yerləşdirilmişdir[4].

Həmçinin, Mərkəz və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş “Xarici Arbitraj Qərarlarının Tanınması və İcrası haqqında” Nyu-York Konvensiyasının *(The New York Convention on the Recognition and Enforcement of Foreign*

---

[4] https://heqt.gov.az/post-details.php?lang=az&id=101

*Arbitral Awards)* Mərkəzin rəsmi internet saytında yerləşdirilməsi təmin edilmişdir.[5] Eyni zamanda, Konvensiyanın Azərbaycan dilinə tərcümə edilmiş mətninin rəsmi mətnə uyğunluğunun (autentikliyinin) Xarici İşlər Nazirliyi tərəfindən yoxlanılması və daha sonra Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında Konvensiyanın Azərbaycan dilində olan versiyasına keçid linkinin yerləşdirilməsi üçün tədbirlər görülməsi barədə Prezident Administrasiyasına müraciət olunmuşdur.

Bundan başqa, Mərkəzin tapşırığı ilə Hüquq və İnsan Haqları İnstitutu tərəfindən bir sıra digər hüquqi aktlar, o cümlədən "İnvestisiya fəaliyyəti haqqında" Qanunun və "Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanunun ingilis dilinə tərcümə edilmişdir. Mərkəz tərəfindən tərcümələrin düzgünlüyü və tamlığı yoxlanılaraq rəsmi internet saytında yerləşdirilməsi təmin olunmuşdur.[6]

Həmçinin, Hüquq və İnsan Haqları İnstitutu tərəfindən ingilis dilindən Azərbaycan dilinə tərcümə edilmiş Məhkəmə hakimiyyətinin müstəqilliyinin əsas prinsiplərinin *(Basic Principles on the Independence of the Judiciary),* Vəkillərin rolu haqqında əsas prinsiplərin *(Basic Principles on the Role of Lawyers)*, Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən güc və odlu silahın tətbiq edilməsinə dair əsas prinsiplərin *(Basic Principles on the Use of Force and Firearms by Law Enforcement Officials)* və Prokurorların rolu haqqında Təlimatın *(Guidelines on the Role of Prosecutors)* da tərcümə mətnlərinin düzgünlüyü və tamlığı Mərkəz tərəfindən yoxlanılaraq rəsmi internet saytında yerləşdirilməsi təmin olunmuşdur.[7]

Bununla yanaşı, Mərkəz tərəfindən hazırlanmış "Normativ hüquqi aktların qəbul edilməsi zərurətinin əsaslandırması sənədinin tərtib edilməsi Qaydaları" və "Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat"ın da Hüquq və İnsan Haqları İnstitutu tərəfindən ingilis dilinə tərcümə edilməsi təmin edilmiş və müvafiq tərcümələrin düzgünlüyü Mərkəz tərəfindən yoxlanılaraq rəsmi internet saytında yerləşdirilməsi təmin olunmuşdur.[8]

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi" işçi qrupunun fəaliyyəti üçün və Mülki Məcəllənin Konsepsiya sənədinin hazırlanmasında istinad mənbəyi kimi əhəmiyyəti nəzərə alınmaqla, Rusiya Federasiyasının Mülki Qanunvericiliyinin İnkişaf Konsepsiyasının müvafiq hissələri Azərbaycan dilinə tərcümə edilmişdir.

Ümumilikdə hesabat dövründə cəmi 137 vərəq olmaqla 11 sənədin tərcüməsi yekunlaşmışdır.

*<u>Hüquqi maarifləndirmə işinin aparılması üzrə</u>*

[5] https://heqt.gov.az/international-law.php?lang=az
[6] https://heqt.gov.az/national-law.php?lang=en
[7] https://heqt.gov.az/az/pages/view/beynelxalq-senedler
[8] https://heqt.gov.az/az/pages/view/daxili-aktlar2

“Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzində hüquqi maarifləndirmə işinin aparılması ilə bağlı 2024-cü il üzrə Tədbirlər Planı”nın 1-ci hissəsinin icrası məqsədilə Mərkəzin rəsmi internet saytında “İzahedici qeydlər” adlı xüsusi bölmə yaradılmış və 2024-cü il ərzində qəbul edilmiş bir sıra hüquqi aktlara dair izahedici qeydlər hazırlanaraq sözügedən bölmədə yerləşdirilməsi təmin edilmişdir. Həmçinin, Tədbirlər Planının 2-ci hissəsinin icrası ilə bağlı Mərkəzin rəsmi internet saytında “Sual-cavab” bölməsinin yerləşdirilməsi təmin edilmiş və daha çox maraq doğuran suallara aydınlıq gətirilmişdir.

Bundan əlavə, Mərkəz tərəfindən elan edilmiş təcrübə proqramında iştirak üçün ən uyğun 3 namizəd (Bakı Dövlət Universitetinin və ADA Universitetinin tələbələri) seçilmiş və həmin tələbələr Mərkəzin İcraçı direktorunun müvafiq əmrinə əsasən Mərkəzdə normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində 01.02.2024 – 01.04.2024-cü il tarixlərində təcrübə keçmək üçün Mərkəzin ayrı-ayrı şöbələrinə yönləndirilmişdirlər. Bu müddət ərzində onlar Mərkəzin fəaliyyəti, hüquqi akt layihələrinin hazırlanması, normayaratma texnikası, hüquqi ekspertizanın aparılması qaydaları ilə tanış olmuş, müxtəlif məsələlərlə bağlı beynəlxalq təcrübənin araşdırılması, təhlili, habelə bir sıra sənədlərin hazırlanması işinə cəlb edilmişlər. Təcrübə proqramını uğurla başa vuran tələbələrə Mərkəzin İcraçı direktoru tərəfindən sertifikat təqdim edilmişdir.

Qeyd edilənlərlə yanaşı Mərkəzin rəsmi internet saytında təkmilləşdirilmələr aparılmaqla yeni bölmələr (“Hüquqi ekspertiza”, “Hazırlanmış sənədlər”, “Hüquqi tərcümə”, “İzahedici qeydlər”, “Qanunvericiliyə dair təkliflər”, “Sual-cavab” və “Hesabatlar”) əlavə edilmişdir. “Hüquqi ekspertiza” və “Hazırlanmış sənədlər” bölməsində Mərkəz tərəfindən hüquqi ekspertizası aparılmış, hazırlanmış və qüvvəyə minmiş 83 hüquqi aktın yerləşdirilməsi təmin edilmişdir. Eyni zamanda saytın “Xəbərlər” bölməsinin aktivliyi artırılaraq, Mərkəzin fəaliyyəti barədə 30 məlumat yerləşdirilmişdir. Bununla yanaşı Mərkəzin fəaliyyətinə dair bir sıra xəbərlər e-huquq.az informasiya portalı vasitəsilə ictimaiyyətə açıqlanmışdır.[9]

Eyni zamanda, X və İnstagram sosial şəbəkələrində Mərkəzin hesabının yaradılması, habelə rəsmi internet saytında və müvafiq sosial şəbəkələrdə (Facebook, İnstagram, Linkedin və X) mütəmadi olaraq məlumatların yerləşdirilməsi və yenilənməsi təmin edilmişdir. Belə ki, 2024-cü ildə Mərkəzin fəaliyyəti barədə rəsmi internet saytının “Xəbərlər” bölməsində, sosial şəbəkə hesablarında, habelə e-huquq.az informasiya portalında ümumilikdə 200-dən çox paylaşım edilmişdir. Qeyd edilən paylaşımlara ümumilikdə Mərkəzin rəsmi internet saytında 10000-dən, sosial şəbəkə hesablarında 56000-dən çox baxış qeydə alınmışdır.

Hesabat dövründə Mərkəzin rəsmi internet saytına 16000-dən çox baxış və 5800-dən artıq giriş olmuşdur.

[9] https://www.e-huquq.az/search-news?s=h%C3%BCquqi+ekspertiza+v%C9%99+qanunvericilik+t%C9%99%C5%9F%C9%99bb%C3%BCsl%C9%99ri+m%C9%99rk%C9%99zi

*<u>Mərkəzin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə</u>*

Əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məsələsinə də Mərkəz tərəfindən mütəmadi olaraq diqqət yetirilir. Belə ki, bu məqsədlə TAIEX – Texniki Yardım və İnformasiya Mübadiləsi Aləti çərçivəsində "Əsaslandırma sənədlərinin hazırlanması" *(Developing policy papers (explanatory notes))* mövzusunda ekspert missiyasının təşkil edilməsi barədə edilmiş müraciət üzrə müvafiq donor təşkilatla danışıqlar davam etdirilərək müraciətin müsbət dəyərləndirilməsi təmin edilmişdir. Müvafiq ekspert missiyası çərçivəsində 2025-ci ildə Mərkəzin əməkdaşlarına müvafiq təlimlərin keçirilməsi planlaşdırılır.

Bundan başqa, Mərkəzin əməkdaşlarının normayaratma fəaliyyəti sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün İcraçı direktorun müvafiq əmrinə əsasən Mərkəzin 3 əməkdaşı (Xüsusi hüququn ekspertizası şöbəsinin, Publik hüququn ekspertizası şöbəsinin və Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin aparıcı mütəxəssisləri) 2024-cü ilin yanvarın 7-dən martın 19-a kimi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında təlimə cəlb edilmişdirlər.

Həmçinin, 2024-cü ilin 3-7 iyun tarixlərində Mərkəzin İcraçı direktoru Martin Luter adına Halle-Vittenberq Universiteti, RheinMain Tətbiqi Elmlər Universiteti və GİZ təşkilatının birgə təşkilatçılığı ilə Almaniyanın Visbaden və Halle şəhərlərində keçirilən "Mülki qanunvericilik üzrə islahatlar: Almaniya təcrübəsi" mövzusunda 5 günlük seminarda iştirak etmişdir. Həmin tədbir hazırda bir sıra postsovet ölkələrində aparılan mülki qanunvericiliyin təkmilləşdirilməsi prosesinə dəstəyin göstərilməsi məqsədilə təşkil olunmuşdur. Tədbirdə Mərkəzin İcraçı direktoru da iştirak etmişdir. Tədbirdə Almaniyada mülki qanunvericiliyin təkmilləşdirilməsi işləri, o cümlədən Almaniya korporativ hüququ, hüquqi şəxslərin idarəedilməsi, ticarət reyestri, müqavilələrin şərhi, əhəmiyyətsiz əqdlər, müqavilələrin mübahisələndirilməsi, əşya hüququ, daşınmaz əmlakın reyestri, daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi, əşya hüquqlarının məhdudlaşdırılması mövzularında interaktiv təlimlər keçirilmiş, məhkəmə və dövlət orqanlarında görüşlər keçirilməklə fikir mübadiləsi aparılmışdır.

Qeyd edilənlərdən əlavə, Mərkəzin İcraçı direktoru  və Publik hüququn ekspertizası şöbəsinin müdiri bu ilin 26-28 iyun tarixlərdə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən XII Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak etmişdirlər. Forumda müxtəlif hüquq sahələri üzrə aktual problemlər, habelə insan hüquqları, mübahisələrin həlli və hüquq elminin inkişaf istiqamətləri üzrə müzakirələr və təcrübə mübadiləsi aparılmışdır. Mərkəzin nümayəndələri "Hüquqda fundamental tədqiqatlar və hüququn cəmiyyətə təsiri", "Hüquq funksiyasının idarəedilməsində hüquqi texnologiyalar, dizayn və digər innovasiyalar", "Rəqəmsal ədliyyə: gələcəyə addım", "Ailə institutunun qorunması", "Təhsildə və elmdə süni intellektin istifadə olunmasının tənzimlənməsi", "Rəqəmsal Məcəllə: perspektivlər və risklər", "İş

mühiti, korporativ idarəetmə və hüquq xidmətləri bazarı", "Beynəlxalq hüquq və mülkiyyət: yeni problemlər və həllər" və bir sıra digər seminarlarda, habelə xarici ölkələrin nümayəndələri ilə görüşlərdə iştirak etmişdirlər. Qeyd olunan forumda iştirak edilməsi müxtəlif sahələrdə hüquqi tənzimləmə üzrə qabaqcıl xarici təcrübə, o cümlədən son dövrlərdə süni intellekt və digər müasir texnologiyaların tətbiqi ilə əlaqədar yaranan yeni hüquq münasibətlərinin tənzimlənməsi istiqamətində müxtəlif yanaşmalarla tanışlıq üçün faydalı olmuşdur.




Eyni zamanda, 2024-cü ilin 20 avqust tarixində Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin iki əməkdaşı Ədliyyə Nazirliyinin təşəbbüsü ilə keçirilmiş "Daşınmaz əmlak dövriyyəsinin stabilliyi" mövzusunda elmi-praktiki seminarda iştirak ediblər. Seminar daşınmaz əmlak sektorunda hüquqi sabitliyin təmin edilməsi, bu sahədə müasir çağırışlara uyğun effektiv mexanizmlərin formalaşdırılması, eləcə də daşınmaz əmlak hüquqlarının qorunması, qeydiyyatı və sektorun inkişafı üçün beynəlxalq təcrübələrdən faydalanaraq qanunvericiliyin təkmilləşdirilməsində dövlət orqanlarının (qurumlarının), beynəlxalq və yerli ekspertlərin, mütəxəssislərin fikirlərinin və təcrübələrinin mübadiləsi istiqamətində elmi-praktiki fikirlərin səsləndirildiyi mühüm bir platforma olmuşdur. Tədbirdə təminat qeydinin praktiki problemləri, daşınmaz əmlak hüquqlarının qeydiyyatı, mənzil tikinti kooperativlərinin fəaliyyəti ilə bağlı mövcud problemlər, onların həlli yolları, tikintisi başa çatmamış binalarda mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

*Mərkəzin təmsil olunduğu müxtəlif tədbirlər*

Hesabat dövründə Mərkəz tərəfindən yerli və xarici qurumlarla ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsi davam etdirilmiş, habelə nizamnamə ilə nəzərdə tutulmuş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra digər işlər də görülmüşdür.

Belə ki, hesabat dövrü ərzində Mərkəzin əməkdaşları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş elmi-nəzəri konfransda, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təşkil edilmiş "İstintaq təcrübəsinin müasir problemləri" mövzusuna həsr olunmuş elmi-praktiki konfransda, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının təşkilatçılığı ilə keçirilmiş

“Elektron order, elektron müqavilə və digər elektron xidmətlərin ictimaiyyət üçün təqdimat”ında, “PAŞA Bank” ASC tərəfindən təşkil edilmiş “Azərbaycan bazarında sindikat kreditləşməsi” mövzusuna dair konfransda, Hüquq və İnsan Haqları İnstitutunun və “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində təşkil edilmiş “Gender bərabərliyi sahəsində mövcud problemlər və qanunvericilik təklifləri” mövzusunda dəyirmi masada və hüquq sahəsində nəşr olunan elmi jurnalların vahid elektron axtarış bazasının yaradılması, hüququn ayrı-ayrı sahələri, o cümlədən insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin bir bazada toplanılması məqsədilə Hüquq və İnsan Haqları İnstitutu tərəfindən təşkil edilmiş dəyirmi masada iştirak etmişdirlər.



Bununla yanaşı, Mərkəzin əməkdaşları Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın keçirdiyi tədbirlərdə və işçi qruplarının fəaliyyətində də yaxından iştirak etmişdirlər. Belə ki, 2024-cü il 7 mart tarixində Mərkəzin İcraçı direktoru Komissiyanın üzvü olaraq Komissiya tərəfindən təşkil olunmuş “Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar” mövzusunda konfransda iştirak edərək “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi üzrə Konsepsiya sənədinin hazırlanması üzrə görülən işlər və bu sahədə gözləntilər” mövzusunda təqdimatla[10] çıxış etmişdir. Həmçinin, Mərkəzin əməkdaşları Komissiyanın “Biznesin müflisləşməsi” və “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qruplarının iclaslarında və Komissiyanın Katibliyinin “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın



[10] https://azranking.az/public/images/M%C3%BClki%20M%C9%99c%C9%99ll%C9%99%20T%C9%99qdimat_7%20mart%20 2024%20(final).pdf

internet portalının effektiv idarə edilməsi üzrə Reqlament”in təqdimatına dair iclasında iştirak etmişdir.

Qeyd olunanlarla yanaşı, 2024-cü ilin 25-26 aprel tarixlərində Azərbaycan Arbitraj Assosiasiyasının təşkilatçılığı ilə "Azərbaycan Arbitraj Günləri" adlı beynəlxalq tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının nümayəndələri, Mərkəzin İcraçı direktoru, bir sıra dövlət və hökumət nümayəndələri və müxtəlif ölkələrdən gələn qonaqlar iştirak etmişdirlər. Tədbirin ilk günündə Mərkəzin İcraçı direktoru “Azərbaycanda yeni arbitraj qanunu və BMT-nin Ticarət Hüququ üzrə Komissiyasının *(UNCITRAL)* regionda təsiri” mövzusunda paneldə çıxış etmişdir. Tədbirdə Azərbaycan Respublikasının “Arbitraj haqqında” Qanunu, müasir dövrdə beynəlxalq hüquqi mübahisələrin həlli, regionda “İpək yolu”nun və digər infrastruktur və investisiya layihələrinin əhəmiyyəti, investisiya arbitrajı və sair mövzularda panel müzakirələr yer almışdır.

Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri Şirvan Apellyasiya Məhkəməsinin Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələrinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442, 443, 444, 445, 447 və 449-cu maddələrinin şərh edilməsi ilə bağlı Konstitusiya Məhkəməsinə müraciətinə dair işə baxılması ilə əlaqədar 21.06.2024-cü il tarixində AR Konstitusiya Məhkəməsinin Plenum iclasında mütəxəssis qismində iştirak etmiş və Plenum iclasında çıxış edərək qeyd olunan müraciətlə bağlı mülahizələrini bildirmişdir. Sözügedən Plenum iclasında Milli Məclisin, Bakı Apellyasiya Məhkəməsinin, Baş Prokurorluğun, Vəkillər Kollegiyasının, Bakı Dövlət Universitetinin nümayəndələri də mütəxəssis qismində iştirak etmişdir.

Həmçinin, Mərkəzin İcraçı direktoru 2024-cü ilin iyun ayının 24-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Xankəndi şəhərində “Ətraf mühitinin gücləndirilməsində maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu” mövzusunda elmi-praktiki konfrans formatında keçirilən 11-ci iclasında iştirak etmişdir. Konfransda “Azərbaycan Respublikasında ekoloji siyasətə dair” və “Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə” mövzularında vidoçarxlar izlənilmiş, “Azərbaycan Respublikası ərazisində ağackəsmə cinayətləri və inzibati xətaların araşdırılmasının xüsusiyyətləri ilə əlaqədar” metodik vəsaitin və “Ətraf mühitin mühafizəsinin hüquqi əsasları” adlı vəsaitin təqdimatı keçirilmişdir.

2024-cü ilin 11 iyul tarixində Bakı şəhərində Mərkəzin İcraçı direktoru Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin təşəbbüsü ilə keçirilən I Milli Rəqabət Forumunda iştirak etmişdir. Forumun "Məhkəmə-hüquq sisteminin rəqabət siyasətinin icrasında rolu" mövzulu panelində iştirak edən Mərkəzin İcraçı direktoru 2024-cü ilin 1 iyul tarixindən qüvvəyə minmiş Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin son illərdə beynəlxalq təcrübədən ciddi formada bəhrələnən ən mütərəqqi normativ hüquqi aktlardan olduğunu vurğulayaraq onun uğurlu tətbiqi üçün uzunmüddətli və intensiv maarifləndirmənin, xüsusən rəqabət orqanı tərəfindən təlimçilər üçün təlimlərin təşkil edilməsinin, həmçinin sözügedən Məcəlləni tətbiq edən və tətbiqə məruz qalan subyektlər (hakimlər, vəkillər, biznes nümayəndələri) üçün sistematik təlimlərin keçirilməsinin, rəqabət orqanı tərəfindən Rəqabət Məcəlləsinin tətbiqi ilə bağlı onlara daxil olan müraciətlərə praktiki izahların verilməsinin, Rəqabət Məcəlləsinin kommentariyasının hazırlanmasının, rəqabət qanunvericiliyinin tətbiqini ümumiləşdirən daydjestlərin (icmalların) və Ali Məhkəmənin Plenum qərarlarının hazırlanmasının və bu kimi digər tədbirlərin həyata keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirmişdir.




Bundan başqa, 2024-cü ilin 17 sentyabr tarixində Mərkəzin Publik hüququn ekspertizası şöbəsinin müdiri Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun geniş tərkibdə keçirilən iclasında üzv qismində iştirak etmişdir. Tədbirdə İşçi qrupun ötən illərdəki fəaliyyəti və bu fəaliyyət nəticəsində əldə edilən nailiyyətlərdən danışılmış, 2024-cü il üzrə əsas hədəfləri əhatə edən Yol Xəritəsinin əksər tədbirlərinin artıq icra edildiyi qeyd edilmişdir. Həmçinin, iclasda mübahisələrin həllinin ən rahat və çevik həll yollarından olan arbitraj proseslərinin tənzimlənməsi sahəsində ən son yeniliklər, o cümlədən yeni qəbul edilmiş qanunvericilik aktları barədə məlumatlar səsləndirilmişdir.

Eyni zamanda, 2024-cü ilin 29 oktyabr tarixində Mərkəzin Publik hüququn ekspertizası şöbəsinin müdiri Bakı Dövlət Universitetinin Hüquq fakültəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə "İqlim dəyişiklikləri və məcburi yerdəyişmələr" mövzusunda keçirilən tədbirdə iştirak etmişdir. Tədbir iqlim dəyişikliyi və məcburi yerdəyişmələr arasında əlaqəni işıqlandırmaq və qlobal iqlim böhranının iqlim dəyişikliyi səbəbindən yaşadığı ölkəni tərk etmək

məcburiyyətində qalan insanlara və vətəndaşlığı olmayan şəxslərə hansı şəkildə qeyri-proporsional təsir göstərdiyini müzakirə etmək məqsədi daşıyıb.

2024-cü ilin 6 noyabr tarixində Mərkəzin Publik hüququn ekspertizası şöbəsinin aparıcı mütəxəssisi Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, ABB və “Azercell Telecom” MMC-nin dəstəyi ilə ekoloji, sosial və korporativ idarəetmə (ESG) üzrə vahid platformanın və milli standartın təqdimatı ilə bağlı keçirilən konfransda iştirak etmişdir. Tədbir çərçivəsində ESG platformasının ideyası, ətraf mühit və dayanıqlı inkişaf məsələlərinə, beynəlxalq reytinqlərdə ekoloji performansla bağlı göstəricilərə verəcəyi müsbət töhfələrlə bağlı çıxışlar edilmişdir. Daha sonra ESG üzrə vahid platformaya və milli standarta dair təqdimatlar nümayiş olunmuşdur.

Göstərilənlərlə yanaşı 2024-cü ilin 21 noyabr tarixində keçirilən "Dünya üzrə normayaratma sahəsində yeni inkişaflar haqqında" Beynəlxalq Qanunvericilik Assosiasiyasının iclasında Mərkəzin rəhbərliyi və əməkdaşları iştirak etmişdir. İclasda Mərkəzin İcraçı direktoru “Azərbaycanda son qanunvericilik inkişafı” mövzusunda təqdimatla çıxış edərək Mərkəzin fəaliyyəti, görülən işlər, Azərbaycanda qanunvericilik sahəsindəki son yeniliklərlə bağlı məlumat vermişdir.[11]



Bundan başqa, Mərkəz və Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə dekabrın 6-da “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa dair hazırlanmış elmi-praktiki kommentariya layihəsinin müzakirəsi ilə bağlı dəyirmi masa keçirilmişdir. Dəyirmi masada Mərkəzin İcraçı direktoru tərəfindən layihənin məqsədi barədə məlumat verilmiş və belə qanunların qəbul edilməsinin hüquq mühafizə orqanları ilə vətəndaşlar arasında sağlam dialoqun qurulmasına və insan hüquqlarının müdafiəsinin praktiki həll yollarının tapılmasına təkan verdiyi qeyd edilmişdir. Tədbirdə həmçinin İnstitutun əməkdaşı tərəfindən hazırlanmış kommentariyanın məqsədi, strukturu və məzmunu barədə ətraflı məlumat verilmiş, müvafiq Qanunda aşkar edilmiş boşluqlara dair münasibət bildirilmiş, kommentariyanın yazılmasında çox sayda beynəlxalq sənədlərdən və məhkəmə qərarlarından istifadə edildiyi iştirakçıların diqqətinə çatdırılmışdır. Tədbirə Ombudsman Aparatının, Milli Məclisin, Baş Prokurorluğun, Ali və Konstitusiya Məhkəmələrinin,

[11] https://ial-online.org/on-our-biannual-meeting-of-new-developments-in-legislative-drafting-21-november/

Məhkəmə-Hüquq Şurasının, Vəkillər Kollegiyasının təmsilçiləri, həmçinin bir sıra ali təhsil müəssisələrinin alimləri, QHT və media nümayəndələri qatılmışdır.

Göstərilənlərlə yanaşı hesabat dövründə Mərkəzin əməkdaşları dövlət orqanları (qurumları) və beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş bir sıra digər tədbirlərdə də iştirak etmiş və həmin tədbirlərin fəaliyyətinə öz töhfəsini vermişdirlər.

*Mərkəzə daxil olmuş müraciətlər üzrə*

Son olaraq qeyd edilməlidir ki, hesabat dövründə mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, digər qurumlardan və vətəndaşlardan Mərkəzə ümumilikdə 316 sənəd daxil olmuş, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi**